# İŞIQ

*İctimai-siyasi qəzet*

Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №2 (7473) | 31 yanvar 2020-ci il | Cümə | Qiyməti 20 qəp.




# 20 YANVAR FACİƏSİNİN 30-CU İLDÖNÜMÜ ŞƏHƏRİMİZDƏ GENİŞ QEYD OLUNDU

**20 Yanvar Ümumxalq Hüzn Günü münasibətilə respublikamızın hər yerində olduğu kimi, şəhərimizdə də ümumşəhər tədbiri keçirildi.**

Öncə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri Şəhidlər Xiyabanını ziyarət ediblər. «Yanar məşəl» abidəsi ətrafına və şəhid məzarları üzərinə tər qərənfillər düzülmüşdür. Şəhidlərin ruhuna dualar oxunmuşdur. 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş ümumşəhər tədbiri 20 Yanvar abidəsi önündə keçirildi.

Tədbiri şəhər Təhsil şöbəsinin müdiri R.Allahverdiyev açmışdır.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 20 Yanvar (1990-cı il) faciəsinin 30-cu ildönümü münasibəti ilə çıxış edərək demişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 dekabr 2019-cu il tarixdə "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevin 18 dekabr 2019-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq 20 Yanvar (1990-cı il) faciəsinin 30-cu ildönümü ölkəmizin hər yerində olduğu kimi şəhərimizdə də geniş qeyd edilir.

Prezident Administrasiyasının və Şirvan Şəhər İcra Hakimiyyətinin Tədbirlər Planında qeyd olunduğu kimi 1990-cı ilin qanlı 20 Yanvar Günü tarixin yaddaşına Azərbaycan xalqının istiqlaliyyəti, süverenliyi və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi daxil olmuşdur.

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hərbi birləşmələrinin Azərbaycanda törətdiyi kütləvi qırğından 30 il keçməsinə baxmayaraq xalqımız həmin faciənin ağır nəticələrini bu gün də xatırlayır. SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçov 20 Yanvar qırğınını törətməklə ermənilərin Azərbaycanın Dağlıq Qarabağ ərazisinə iddialarını müdafiə etdiyini göstərdi. Azərbaycan xalqının bu haqsızlığa qarşı etiraz səsini və milli azadlıq mübarizəsini boğmağa cəhd etdi. Sovet rəhbərliyi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" qərar qəbul etdi. Lakin bu qərarın tətbiqi barədə əhaliyə vaxtında xəbər verilmədi.

Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-sinin "Alfa" qrupu yanvarın 19-da respublika televiziyasının enerji blokunu partlatdı. Azərbaycan informasiya blokadasına alındı. Əhali məlumat almaq mənbələrindən məhrum edildi.

Mərkəz tərəfindən Azərbaycana qarşı aparılan mənəvi, ideoloji və siyasi təcavüz qısa müddət ərzində faciəvi sonluqla bitdi. Sovet ordusunun xüsusi təlim görmüş, tərkibində erməni zabitlərinin olduğu 12 min nəfərlik qoşun hissələri, zirehli texnika 3 istiqamətdən Bakıya yeridildi. Şəhərdə yanvarın19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədildi.

20 yanvar faciəsi zamanı rəsmi məlumatlara görə Bakıda 131 nəfər mülki şəxs küçələrdə, evlərdə, avtomobillərində, iş yerlərində öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs edilmiş, 200-dən çox bina, 80 avtomobil, o cümlədən təcili yardım maşını yararsız hala salınmışdır.

Həmin qətliamdan bir gün sonra, yanvar ayının 21-də xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ rəhbərliyini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Heydər Əliyev Bakıda yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə hüquqi siyasi qiymət verilməsini tələb etdi. Fövqəladə vəziyyətin tətbiq edilməsinə baxmayaraq yanvarın 22-də Azərbaycan xalqı öz şəhidləri ilə vidalaşdı. Bakıdakı matəm mərasimində yüz minlərlə insan iştirak etdi.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin ilin noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verildi.

Yalnız ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Respublika səviyyəsində faciəyə hüquqi-siyasi qiymət verildi.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının göstərilməsinə böyük diqqətlə yanaşırdı. Bu gün Şəhidlər Xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa edilmişdir. Ulu öndər Heydər Əliyevin 2000-ci il yanvar ayının 17-də imzaladığı fərmanla 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 yanvar şəhidi" fəxri adı verildi. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir. Şirvan Şəhər İcra Hakimiyyətinin diqqət və qayğısı ilə şəhərimizdə yerləşən "Şəhidlər xiyabanın"da da vaxtaşırı cari və əsaslı təmir işləri aparılmış, Şəhid Milli Qəhrəmanlarımızın abidələri ətrafında zəruri işlər görülmüş, adları əbədiləşdirilmiş, 20 Yanvar şəhidi Elçin İmanovun adı 10 nömrəli tam orta məktəbə verilmişdir.



Şəhərimizdə şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün hər cür şəraiti olan 105 mənzilli iki 5 mərtəbəli, 8 və 16 mənzilli yaşayış binaları istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və Müdafiə Nazirliyinin təşkilati köməkliyi sayəsində ölkəmizdə 20 Yanvar faciəsinin mühüm məqamlarını və həqiqətlərini əks etdirən "Qanlı Yanvar" filmi çəkilmişdir. Şəhidlərin əziz xatirəsini daim uca tutan möhtərəm Prezidentimiz və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Azərbaycan həqiqətlərini, Dağlıq Qarabağ problemini, 20 Yanvar faciəsini, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdıran ardıcıl tədbirlər görürlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hücum xarakterli diplomatiyası, dövlət müstəqilliyimizin güclənməsi, ölkəmizin hərtərəfli inkişafını təmin edən siyasəti, regionda və beynəlxalq aləmdə artan nüfuzu deməyə əsas verir ki, xalqımızın haqq işi, ədalətli mövqeyi tezliklə qalib gələcək, Dağlıq Qarabağ problemi həll ediləcək, işğal olunmuş torpaqlarımız azad ediləcək, xalqımızın qəhrəmanlıq salnaməsini yazan şəhidlərimizin ruhu şad olacaqdır.

Allah bütün şəhidlərə rəhmət eləsin.

Sonra 20 Yanvar şəhidi Elçin İmanov adına 10 nömrəli tam orta məktəbin müəllimi S.Əsgərova çıxış etdi.

1 nömrəli tam orta məktəbin şagirdləri 20 Yanvar şəhidlərinə həsr olunmuş ədəbi-bədii kompozisiya ilə çıxış etdilər.

Saat 12-dir. Respublikamızın hər yerində olduğu kimi, şəhərimizdə də 20 Yanvar faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Avtomobillərdən və qatarlardan siqnallar verildi.

Şəhərin axundu Hacı Əvəz şəhidlərin ruhuna dualar oxudu.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və tədbir iştirakçıları 20 Yanvar abidəsi önünə tər çiçəklər düzdülər.

Ümumşəhər tədbiri şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasovun, Şura üzvlərinin, hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə el qəbiristanlığında uyuyan şəhid məzarlarının ziyarəti ilə yekunlaşdı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən 10 nömrəli tam orta məktəbdə vətəndaşların növbəti səyyar qəbulu keçirilib

**Qəbulda İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, dövlət orqanlarının yerli idarələrinin və xidmət təşkilatlarının rəhbərləri iştirak edib.**

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında keçirilmiş 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə ilə bağlı ətraflı çıxış edərək, qeyd olunan müddətdə istər respublikamızda, istərsə də şəhər miqyasında əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışıb.

İlqar Abbasov qeyd edib ki, 2019-cu ildə respublikamızda həyata keçirilən böyük həcmli enerji layihələri, genişmiqyaslı struktur və kadr dəyişiklikləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlar 2019-cu ilin bütövlükdə ölkəmiz və şəhərimiz üçün uğurlu il olduğunu göstərir.

Qəbul zamanı 24 nəfər şəhər sakini onları narahat edən müxtəlif sosial məsələlərlə bağlı şəhər İcra Hakimiyyətinin başçısına müraciət ünvanlayıblar. Qəbula gələn vətəndaşlar fərdi qaydada dinlənilib və müarciətlərə aydınlıq







gətirilib. Həlli vacib olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq qanunauyğun şəkildə tədbirlərin görülməsi üçün İcra Hakimiyyətinin başçısı tərəfindən əlaqədar qurum və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Sakinlər onlara yaradılan şəraitə, göstərilən qayğıya və problemlərinin həllinə yönəlmiş səyyar görüşlərin təşkilinə görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıqlarını bildiriblər.



# Hacıqəhrəmanlı qəsəbə İnzibati Ərazi vahidi üzrə Nümayəndəliyin hesabat yığıncağı keçirilmişdir

**15 yanvar 2020-ci il tarixdə, 12 nömrəli tam orta məktəbdə Hacıqəhrəmanlı qəsəbə İnzibati Ərazi vahidi üzrə Nümayəndəliyin 2019-cu ilin yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Hesabat yığıncağında şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhərin idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**



Hesabat məruzəsi ilə çıxış edən qəsəbə İnzibati Ərazi vahidi üzrə Nümayəndə Pünhan Mənsimov qəsəbədə infrastrukturun inkişafı, sakinlərin sosial rifah halının yaxşılaşdırılması, enerji daşıyıcıları ilə dayanıqlı və fasiləsiz təmin olunması istiqamətində 2019-cu il ərzində görülmüş işlər haqqında ətraflı danışmışdır. Pünhan Mənsimov bildirib ki, qəsəbə əhalisinin məşğulluğu fərdi təsərrüfatlarında yaradılmış istixanalar hesabına təmin edilib. Qəsəbədə ümumi sahəsi 9 ha olan 160 fərdi təsərrüfatda istixanalar yaradılmış və istixanalar hesabına 425 nəfər qəsəbə sakininin məşğulluğu təmin edilmişdir. Keçən dövr ərzində 900 ton kənd təsərrüfatı məhsulları daxili və xarici bazarlara satışa çıxarılmışdır.

Hesabat yığıncağında şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında keçirilmiş 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə ilə bağlı ətraflı çıxış edərək, qeyd olunan müddətdə istər respublikamızda, istərsə də şəhər miqyasında əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışmışdır.

Şəhər İcra Hakimiyyətinin başçısı vurğulayıb ki, 2019-cu il bütövlükdə ölkəmiz və şəhərimizlə yanaşı Hacıqəhrəmanlı qəsəbəsi üçün də uğurlu il olmuşdur. Qəsəbənin ərazisində respublikamız üçün böyük strateji əhəmiyyətə malik "Cənub ES" və Şirvan OYL Əməliyyat Şirkətinin müəssisələri yerləşir. Qəsəbə əhalisinin müəyyən hissəsi heyvandarlıq, fərdi təsərrüfatlarda yaratdıqları istixanalarla yanaşı "Cənub ES"-da və Şirvan OYL Əməliyyat Şirkətində işləmiş, şəhərin digər xidmət sahələrində çalışmışlar.

İlqar Abbasov qeyd edib ki, Hacıqəhrəmanlı yaşayış məskəninin qəsəbə kimi formalaşması, burada yaradılan infrastruktur, sosial obyektlərin inşası ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə həyata keçirilmişdir. Bu ümummilli lider, ulu öndər Heydər Əliyevin şirvanlılara, o cümlədən Hacıqəhrəmanlı qəsəbə sakinlərinə göstərdiyi diqqət və qayğının təzahürüdür. Bu qayğı bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Cənab İlham Əliyevin respublikamıza rəhbərliyi dövründə 8 dəfə Şirvan şəhərində rəsmi səfərdə olması, bir sıra sənaye müəssisələrinin, təhsil, səhiyyə və mədəniyyət ocaqlarının, sosial obyektlərinin təməlqoyma və açılış mərasimlərində iştirakı bunu bir daha təsdiq edir.

Məruzə ətrafında çıxış edən qəsəbə sakinləri məruzələrə münasibətlərini bildirərək qəsəbədə həlli vacib məsələlərə toxunublar.

Hesabat məruzələrində əksini tapan nöqsan və çatışmazlıqların və sakinlər tərəfindən qaldırılan problemlərin həlli ilə əlaqədar şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən aidiyyəti qurum və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

# Məmmədova Firuzə Əbdüləli qızı şəhər İcra Hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif edildi



**Şirvan şəhər İcra Hakimiyyətinin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Məmmədova Firuzə Əbdüləli qızı 1989-cu ildən Şirvan şəhər İcra Hakimiyyətində müxtəlif vəzifələrdə çalışmışdır.**

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, Firuzə Məmmədova 30 ildən artıq dövlət qulluğunda çalışmaqla bərabər, şəhərin ictimai həyatında da fəal iştirakı ilə fəqlənmiş, insanlarla rəftarı, yüksək və mənəvi keyfiyyətləri ilə dərin hörmət qazanmış, öz fəaliyyətində dövlət maraqlarını daima uca tutmuşdur. Firuzə Məmmədova çalışdığı Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində ölkə Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamlarının icra olunmasında öz üzərinə düşən məsul vəzifələri vicdanla yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyun 2010-cu il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Firuzə Məmmədova çıxış edərək dövlət qulluğunda çalışmağın böyük şərəf və məsuliyyət olduğunu qeyd etmiş, göstərdiyi diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz minnətdarlığını bildirmişdir.

Sonda, İlqar Abbasov Firuzə Məmmədovanı Şirvan şəhərinin ictimai həyatında fəal iştirakına və dövlət qulluğunda uzun müddətli səmərəli fəaliyyətinə görə şəhər İcra Hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif etmiş, ona möhkəm can sağlığı, dövlət qulluğunda yeni-yeni uğurlar diləmişdir.

# Bayramlı qəsəbə İnzibati Ərazi vahidi üzrə Nümayəndəliyin hesabat yığıncağı



**22 yanvar 2020-ci il tarixdə, Bayramlı qəsəbə klubunda, Bayramlı qəsəbə İnzibati Ərazi vahidi üzrə Nümayəndəliyin 2019-cu ilin yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.**

Hesabat yığıncağında şəhər İcra Hakimiyyəti başçısının I müavini Samid Abıyev, şəhər İcra Hakimiyyəti başçısı yanında şuranın üzvləri, idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Hesabat məruzəsi ilə çıxış edən qəsəbə İnzibati Ərazi vahidi üzrə Nümayəndə Nizami Rəhimov qəsəbədə infrastrukturun inkişafı, sakinlərin sosial rifah halının yaxşılaşdırılması, enerji daşıyıcıları ilə dayanıqlı və fasiləsiz təmin olunması istiqamətində 2019-cu il ərzində görülmüş işlər haqqında ətraflı danışmışdır.

Nizami Rəhimov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 01 oktyabr 2004-cü il tarixli Sərəncamı ilə ərazisi 120 ha olan Bayramlı yaşayış massivinə Şirvan şəhərinin tabeçiliyində inzibati ərazi vahidi statusu verilmişdir. Ölkə rəhbərliyinin diqqət və qayğısı ilə qəsəbədə müasir tələblərə cavab verən 460 yerlik tam orta məktəb, 75 yerlik körpələr evi-uşaq bağçası, tibb məntəqəsi, poçt filialı, klub, kitabxana, bir sıra sosial və xidmət sahələri yaradılmışdır. 2019-cu ildə qəsəbə sakinlərini narahat edən problemlərin araşdırılıb öyrənildiyi, onların sosial, məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin görüldüyü, vətəndaşların şifahi və yazılı müraciətlərinə həssaslıqla yanaşıldığı, hər bir məsələyə aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə baxıldığı bildirildi.

Hesabat yığıncağında qəsəbədə 16 ədəd modul tipli sutəmizləyici qurğunun quraşdırıldığı, əhalinin ümumi su təchizatının Kür çayından 9 ədəd su nasosu vasitəsilə təmin edildiyi, məişət tullantılarının vaxtında daşındığı, ərazidə abadlıq, səliqə- sahman işlərinin aparıldığı, 7 saylı marşrut xətti üzrə avtobusların bir qisminin yeniləndiyi, 21 nəfər qəsəbə sakininin özünüməşğulluq proqramına cəlb olunaraq maddi aktivlərlə təmin edildiyi, əhalinin qaz, su və elektrik enerjisi ilə təminatının yaxşılaşdırıldığı və aztəminatlı ailələrə maddi köməkliklərin göstərildiyi qeyd edildi.

Yığıncaqda çıxış edən sakinlər məruzəyə münasibətlərini bildirərək qəsəbədə həlli vacib məsələlərə toxunublar. Sakinlər onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKOnun xoşməramlı səfiri, Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını ifadə etdilər.

Hesabat məruzəsində əksini tapan nöqsan və çatışmazlıqların və sakinlər tərəfindən qaldırılan problemlərin həlli ilə əlaqədar şəhər İcra Hakimiyyətinin başçısının I müavini Samid Abıyev tərəfindən aidiyyəti qurum və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

# 1 nömrəli sahə inzibati Ərazi Dairəsi nümayəndəliyinin hesabatı

**Yanvarın 29-da Şirvan Şəhər İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati Ərazi Dairəsi üzrə nümayəndəliyinin 2019-cu il üzrə hesabatı dinlənilmişdir.**

Yığıncağı Şirvan Şəhər İcra Hakimiyyəti başçısının I müavini S.Abıyev açdı.

Başçının 1 nömrəli sahə inzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Fəqani Həsənov hesabat məruzəsi ilə çıxış etmişdir.

Məruzəçi demişdir ki, Şirvan şəhəri ölkəmizin iri sənaye mərkəzlərindən biridir. Son illər burada aparılan yenidənqurma, quruculuq işlərindən ürək dolusu danışmaq olar.

2019-cu il ərzində Şirvan şəhəri üzrə dövlət büdcəsinin yerli xərclərindən ayrılmış vəsaitə uyğun olaraq şəhərin prospekt və küçələrində abadlıq işləri görülmüşdür. T.İsmayılov küçəsi 5 və 19 nömrəli yaşayış binalarının qarşısındakı nümunəvi məhəllədə abadlıq işləri tamamlanmış və sakinlərin istifadəsinə verilmişdir.

Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamına əsasən Şirvan şəhəri ərazisində kommunal, mənzil, yaşıllaşdırma təsərrüfat rəhbərlərinin hər birinə şəhər ərazisində məişət tullantılarının yığılması, abadlaşdırma, yaşıllaşdırma, küçələrin işıqlandırılması və s. işlərin ələqələndirilməsi tapşırılmışdır.

2019-cu il ərzində Şirvan şəhər Kommunal Kombinatı Müəssisəsi tərəfindən xidməti ərazidə təmizlik, küçələrin işıqlandırılması və abadlıq sahəsində xeyli işlər görülmüşdür.




Küçə, park və meydanların işıqlanmasına sərf olunan elektrik enerjisi sərfiyyatında itkilərin qarşısının alınması, etibarlı enerji təchizatının təmin olunması və hesabatın dəqiq aparılması məqsədilə elektrik sayğacları olmayan və yararsız sayğacların yerinə yeni elektron sayğaclar quraşdırılmışdır.

Mənzil Təsərrüfatı İdarəsinin kollektivi də 2019-cu ildə şəhər ərazisinin abadlaşması, təmizlik, səliqə səhman və quruculuq işlərində fəallıq göstərmişlər.

Nümunəvi məhəllələrdə oturacaqlar və əyləncə qurğuları təmir olunaraq rənglənmiş, ərazi daim süpürülmüş və alaq otlarından təmizlənmişdir.

Hesabat ilində Mənzil Təsərrüfatı İdarəsinin fəaliyyətində çatışmazlıqlar da olmuşdur. Belə ki, məişət tullantılarının daşınmasında fasilələr olmuşdur.

Şirvan şəhər Yaşıllaşdırma Təsərrüfatı idarəsi şəhərdə aparılan abadlıq işlərində və şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaxından iştirak etmişdir.

2019-cu ilin əvvəlindən başlayaraq Yaşıllaşdırma Təsərrüfatı İdarəsinin işçiləri tərəfindən təsərrüfatın xidməti ərazisində olan ağac və gül kolları mövsümə uyğun olaraq suvarılmışdır.

Ümumilikdə 2019-cu il ərzində 11.529 ədəd ağac, 19.250 ədəd gül, 4 ədəd ştamp dekorativ gül kolu və 820 m2 döşəmə çim çəmən əkilmişdir.

Bildiyiniz kimi ötən il dünya şöhrətli şair İ.Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyasında Şirvan şəhəridə yaxından iştirak etmiş və bu münasibətlə şəhərimizdə H.Əliyev prospektində 3000 ədəd şam, sərv, tuya ağacları əkilmişdir.

Ötən il ərzində Məşğulluq Mərkəzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən "Özünüməşğulluq proqramından" Şirvan şəhəri üzrə 133 sakin yararlanmışdır.

2019-cu il ərzində şəhərin qaz təchizatının yaxşılaşdırılması sahəsində işlər davam etdirilmişdir.

Hesabat ilində şəhərin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması sahəsində xeyli iş görülmüşdür.

2019-cu ildə şəhərin içməli su təchizatının və kanalizasiya sistemlərinin yaxşılaşdırılması, o cümlədən yenidən qurulması davam etdirilmişdir.

1 Nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin fəaliyyətində nöqsanlar da olmuşdur. Biz bunların bəziləri barəsində danışdıq. Çalışacağıq ki, cari ildə nöqsanlar təkrarlanmasın, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələk.

Məruzə ətrafında müzakirələrdə Şirvan şəhər Bələdiyyəsinin sədri K.Muradov, Sukanal idarəsinin rəisi F.Hüseynov, "İşıq" qəzetinin baş redaktoru, şəhər Ağsaqqallar Şurasının sədri F.Rəhimov və başqaları çıxış etmişlər.

Yığıncağı şəhər icra hakimiyyəti başçısının I müavini S.Abıyev yekunlaşdırmışdır.

**F.RƏHİMOV**

# Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların növbəti səyyar qəbulu keçirilib



**23 yanvar 2020-ci il tarixdə, şəhərin Nizami küçəsində, 13 nömrəli tam orta məktəbdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən təsdiq olunmuş qrafikə uyğun olaraq vətəndaşların növbəti səyyar qəbulu keçirilmişdir. Qəbulda İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, dövlət orqanlarının yerli idarələrinin və xidmət təşkilatlarının rəhbərləri iştirak etmişdir.**



Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov son illərdə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına yönəlmiş kompleks tədbirlərlə bağlı ətraflı çıxış edərək, qeyd olunan müddətdə istər respublikamızda, istərsə də şəhər miqyasında əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışmışdır.

İlqar Abbasov qeyd edib ki, regional inkişaf tədbirlərinin nəticəsi olaraq bu gün Azərbaycanın ən böyük sənaye mərkəzlərindən olan Şirvan şəhəri dinamik inkişaf edir, müasirləşir. Cənab Prezident İlham Əliyevin son illərdə dəfələrlə Şirvan şəhərində olması, şəhərin problemləri, qayğıları, nailiyyətləri ilə yaxından maraqlanması, istehsal və sənaye potensialının inkişaf etdirilməsi ilə bağlı dəyərli tövsiyələrini verməsi şəhərə yüksək diqqətin bariz təzahürüdür. Vurğulanıb ki, Şirvan şəhərin simasının günün tələbləri səviyyəsində qurulmasını təmin etmək məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi üçün xüsusi proqram hazırlanacaq və bu proqram uğurla icra olunacaqdır. Eyni zamanda cənab Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq şəhərdə irihəcmli infrastruktur layihələr bundan sonra da davam etdiriləcəkdir.

Qəbul zamanı 20 nəfər şəhər sakini onları narahat edən müxtəlif sosial məsələlərlə bağlı şəhər İcra Hakimiyyətinin başçısına müraciət ünvanlamışlar.

Qəbula gələn vətəndaşlar fərdi qaydada dinlənilmiş və müraciətlərə aydınlıq gətirilmişdir. Həlli vacib olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq qanunauyğun şəkildə tədbirlərin görülməsi üçün şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən əlaqədar qurum və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

Sakinlər öz çıxışlarında son illərdə respublikamızda həyata keçirilən islahatlardan, sosial-iqtisadi inkişafdan razı qaldıqlarını bildirmiş, onlara yaradılan şəraitə, göstərilən qayğıya və problemlərinin həllinə yönəlmiş səyyar görüşlərin təşkilinə görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıqlarını bildiriblər.



*Milli Qəhrəmanlarımız*

# Şəhid olsam, ağlamayın...

**10 il. Xalq arasında bir deyim də var: " Bir igidin ömrü". Bu 10 ildə hər kəsin həyatında bir çox dəyişikliklər oldu, istər yaxsi, istərsə də... Bu onillikdə həyatımızda baş verən hadisələrin bir çoxunu bəlkə də unutmuşuq. Ancaq bir hadisəni heç vaxt unutmayacağıq. Buna hadisə deyil, real həyatda yaşanmış əfsanə desək daha doğru olardı. Bu gün 7-8, hətta ondan da kiçik yaşlı uşaqlardan soruşsan həmin əfsanəni gözləri ilə görmüş kimi danışar. Hansıki o əfsanə reallaşan zaman heç onlar həyatda yox idi. Bəhs etdiyimiz əfsanə Azərbaycan xalqının qəhrəmanlıq tarixinə elə bir səhifə açdı ki, dayanmadan gecə-gündüz təkrar-təkrar oxusan da yenə də ilk dəfə oxuduğun zaman keçirdiyin qürur, fəxr hissini keçirəcəksən.**

Əfsanə deyib qürur duyduğumuz qəhrəmanımız Mübariz Ağakərim oğlu İbrahimovdur. Sağ qalsaydı bir neçə gündən sonra 32 yaşı olacaqdı...

1988-ci il 7 fevralda Biləsuvar rayonunun Əliabad kəndində dünyaya gəlmişdir. Zəhmətkeş ailənin zəhmətkeş, vətənpərvər övladı olaraq. 1994-cu il. Şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinə getmiş, 2005-ci ildə oranı bitirmişdir. İdmanı sevirdi. Xüsusən boksla məşğul olurdu. Allaha bağlı bir gənc idi. Arzularından biri işğal altında olan torpaqların azad olunması idi. Əsgərlikdən sonra mülki işlərdə çalışsa da vətən sevgisi onu könüllü olaraq ordu sıralarına qayıtmasına səbəb olur. İlk vaxtlar ehtiyat hərbi hissədə xidmət edən qəhrəmanımız cəbhəyə getmək arzusu ilə yanıb-tutuşur. Bir neçə dəfə komandanlığa ərizə ilə müraciət edərək onu ön xətdə yerləşən bölmələrdən birinə göndərilməsini xahiş edir. Nəhayət istəyinə nail olur.

18 iyun 2010-cu il. Gecə saat 23:30. Tərtər rayonu yaxınlığındakı Şiştəpə adlanan ərazi. Ermənistan tərəfinin atəşkəsi pozaraq mövqelərimizə hücum etdiyi gecələrdən biri. Mübariz qanıyla qəhrəmanlıq əfsanəsi yazdığı o gecə. Xocalının, Şuşanın, Laçının, Kəlbəcərin, Cəbrayılın, Xocavəndin, Ağdamın, Xankəndinin, Ağdərənin, Füzulinin, Qubadlının, Zəngilanın intiqamını aldığı gecə. Neçə-neçə gözü yaşlı anaların, dərdli ataların, ürəyində yarımçıq qalan sevgi ilə yaşayan qızgəlinlərin, ata həsrəti çəkən övladların, qardaş deyə ağlayan bacıların intiqamını aldığı o gecə. Və 5 saat davam edən döyüşdə 22 yaşlı gənci saysızhesabsız düşməni məhv etdi. Şəhidlik zirvəsinə ucaldı o unudulmaz gecədə.

Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü.

Göstərdiyi rəşadət, qəhrəmanlıq heç vaxt unudulmayacaq. Mübariz və onun kimilər heç vaxt ölmürlər. Mübariz bu torpağın havasında, suyunda, torpağında, hər daşında, gurlayan çayında, yağan yağışında, əsən küləyində, parlayan günəşində, aydın səmasında yaşayır. Bu torpaqda, bu ölkədə nə qədər nəsillər yetişəcək, böyüyəcək və yaşamalarına son verəcəklər. Amma Mübariz heç vaxt unudulmayacaq.

Adına kitablar yazılır, şanına filmlər çəkilir, təkcə ölkəmizdə deyil, xarici ölkələrin telekanallarında yayımlanan filmlərdə adı fəxrlə çəkilir.

Çox deyil. 22 il cismani həyat yaşadı. Fəqət ölümü ilə əbədi yaşam qazandı. İgidimizin yazdığı son sözlər:

"Şəhid olsam- ağlamayın. Əksinə sevinin ki, o mərtəbəyə yüksəldim. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin." "İbrahimov Mübariz"

**Aidə Cənnətqizi**

# Yeni seçilmiş Şirvan Bələdiyyəsinin ilk iclası

**Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddəsinə, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq 23 dekabr 2019- cu il tarixdə keçirilmiş bələdiyyə seçkilərində 17 nəfər üzv seçilmiş və Mərkəzi Seçki Komissiyasının 11 yanvar 2020-ci il 8/56 saylı qərarı ilə təsdiqlənmişdir.**

15 yanvar 2020-ci il tarixdə Şirvan Bələdiyyəsində yeni seçilmiş bələdiyyə üzvlərinin ilk iclası keçirildi.

İclasın gündəliyi təsdiq olunduğdan sonra təşkilati məsələlərə baxıldı. Kürdoğlu Barat oğlu Muradov Şirvan Bələdiyyənin sədri , Əlizamin Vahab oğlu Kərimov və Nəmidə Rzabala qızı Namini (ictimai əsaslarla) sədrin müavinləri seçildilər.

**Rasim Nəhmədov ,**
**Bələdiyyənin Mətbuat Xidmətinin rəhbəri**

*9 fevral Milli Məclisə seçkilər günüdür*

# SEÇKİ ŞƏFFAF, DEMOKRATİK KEÇİRİLƏCƏK

**Fevralın 9-da Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərə az qalmışdır. Seçkilərin azad, ədalətli keçirilməsi üçün atılan addımlar onu göstərir ki, seçicilər öz vətəndaşlıq borclarını heç bir ciddi maneyə rast gəlmədən yerinə yetirəcəklər.**



Bir vacib faktı da qeyd edim ki, beynəlxalq ekspertlər də respublikamızın mövcud qanunvericilik normalarını təhlil etdikdən sonra belə qənaətə gəlmişlər ki, Azərbaycan şəffaf və demokratik seçki keçirmək təcrübəsinə malikdir.

Buna görə də ölkəmizin hər yerində olduğu kimi, şəhərimizdə də seçkilərə ciddi hazırlıq işləri görülür.

Fevralın 9-da keçiriləcək parlament seçkilərində 46 saylı Şirvan DSK üzrə 34 məntəqədə 43 min 417 seçici səs verməlidir. Hazırda seçici siyahılarında son dəqiqləşdirmələr aparılır. 12 məntəqədə veb-kamera quraşdırılmışdır.

Onu da qeyd edim ki, 46 saylı Şirvan Seçki Dairəsində 12 nəfər deputat mandatı uğrunda mübarizəyə başlayıb. Onlar üçün hər cür bərabər şərait yaradılmışdır. 350 yerlik (qapalı tipli) Şirvan şəhər Mədəniyyət Mərkəzi, 8000 yerlik (açıq tipli) Şirvan Olimpiya İdman Kompleksinin stadionu namizədlərin ixtiyarındadır. Onlar qanunvericilik çərçivəsində adları çəkilən ərazilərdə təbliğat işlərini aparırlar.

Seçki məntəqələrinin qarşısındakı lövhələrdə deputatlığa namizədlərin platformaları yerləşdirilmişdir.

Əlaqədar təşkilatlar seçkinin şəffaf və demokratik keçirilməsi üçün qarşıda duran vəzifələri layiqincə yerinə yetircəklərinə inanırıq.

Bir sözlə, seçicilərimizi fevralın 9-da keçiriləcək seçkilərə dəvət edirik. Hər kəsi layiq bildiyi namizədə səs verməyə çağırırq.

**T.AGAYEV,**
**46 saylı Şirvan DSK-nın sədri**

# ÜÇ GÜNLÜK SEMİNAR BAŞA ÇATDI

**46 saylı Şirvan DSK-da yanvarın 28-dən başlayaraq məntəqə seçki komissiyaları üçün 3 günlük seminar keçirilmişdir.**

Dairəyə daxil olan 34 seçki məntəqəsinin sədrləri, katibləri, üzvləri maarifləndirici treninqdə iştirak etmişlər.

Üç gün ərzində «Seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri», «Seçki günü prosesləri və müstəsna hallar», «Səslərin hesablanmasına hazırlıq. Seçki bülletenlərinin təsnifatı. Səslərin hesablanması və yekun protokolunun doldurulması», «Səsvermə proseslərinə dair praktiki tapşırıqlar» mövzuları hərtərəfli müzakirə olunmuşdur.

Treninqdə 46 saylı Dairə seçki komissiyasının sədri Taleh Ağayev, komissiyanın üzvləri Hikmət Paşayev, Tarverdi Dövlətov qeyd olunan mövzularda məruzə etmişlər.

Yüksək diskussiya şəraitində keçən tədbirdə dinləyicilərin çoxsaylı sualları da cavablandırılmışdır.

**«İŞIQ»**

# MƏNTƏQƏMİZ SEÇKİ PROSESİNƏ TAM HAZIRDIR

**2020-ci il fevralın 9-na təyin olunmuş Milli Məclisə seçkilərin yüksək səviyyədə, ədalətli, şəffaf keçirilməsi üçün lazımi addımlar atılır. Məktəbimizdə (18 nömrəli məktəb) fəaliyyət göstərən 21 nömrəli seçki məntəqəsində də bu siyasi kompaniyaya hazırlıq işləri yüksək səviyyədə aparılır.**



Əvvəlcədən onu deyim ki, məntəqəmizdə Xaqani küçəsi ev 21, M.Ə.Rəsulzadə küçəsi ev 15,17, 17a, S.Zeynalov küçəsi ev 4, 12, 14-də yaşayan seçki hüququ olan vətəndaşlar səs verəcəklər. Bir sözlə, məntəqəni əhatə edən ərazidə 1365 nəfər seçici var. Onlardan 34 nəfər səs verəcək gənclərdir. 8 nəfər 80 yaşını ötmüş ahıllardır.

Komissiya üzvlərimiz mütamadi olaraq ərazidə olur, seçicilərlə görüşür, fevralın 9-da seçkilərə fəal iştirak etməyə dəvət edirlər.

Seçici siyahılarımız dəqiqləşdirilərək müvafiq yerdən asılmışdır. Hazırlıqla bağlı tədbirlər planında nəzərdə tutulanlar uğurla yerinə yetirilib. Həkim, Ana-uşaq otaqları yaradılıb. Rabitə xidməti normaldır. Seçkini müşayiət edəcək müşahidəçilər üçün hər cür şərait yaradılmışdır.Seçici kabinələrimiz normal vəziyyətdədir. Ötən seçkilərdə olduğu kimi bu dəfə də məntəqədə «Veb-kamera» quraşdırılıb. Bildirişlər artıq ünvanlarına göndərilib

Tam səmimiyyətlə deyirəm ki, fevralın 9-də keçiriləcək parlament seçkilərinin mütəşşəkkil, demokratik keçməsi üçün məntəqəmizdə hər cür şərait yaradılıb. Seçkiyə tam hazırıq.

**İsmayıl USUBOV,**
**21 nömrəli seçki məntəqəsinin sədri**

# "20 Yanvar faciəsi: səbəblər, nəticələr, tarixi dərs"

**Şirvan şəhər Heydər Əliyev Mərkəzində, "20 Yanvar" faciəsinin otuzuncu ildönümü ilə bağlı Mərkəzin hazırladığı tədbirlər planına əsasən "20 Yanvar faciəsi: səbəblər, nəticələr, tarixi dərs" adlı tarix dərsi təşkil edildi.**

20 Yanvar şəhidi Elçin İmanovun adını daşıyan 10 nömrəli tam orta məktəbin VII sinif şagirdlərinin iştirakı ilə keçirilən dərs şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı.

Mərkəzin əməkdaşı Səkinə Qayıbova çıxış edərək bildirdi ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə axıdılan günahsız qanlar Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi, vətənə, torpağa sədaqət nümunəsi yaradaraq müstəqilliyə əbədi yol açdı.

Yanvar faciəsindən 30 il ötür. Ancaq xalqımız həmin günün dəhşətlərini yaddan çıxarmır, azadlıq mücadiləsində canından keçən şəhidlərimizi böyük ehtiramla yad edir.

Mərkəzin direktoru Aynur Fərzəliyeva ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində addımlar atıldığını, bu faciənin bütün dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlərin görüldüyünü vurğuladı. Xalqımızın o müdhiş gecəni daim xatırlayacağını və 20 Yanvar faciəsinin respublikamızda hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd ediləcəyini bildirdi.



1993-cü ilin iyununda xalqın təkidli tələbi və xahişi ilə ikinci dəfə hakimiyyətə dönən ulu öndər Heydər Əliyev respublikanın inkişafına, Azərbaycan gənclərinə qayğı və diqqətin artırılmasına xüsusi diqqət yetirmişdir. İdarə və müəssisələrdə gənc kadrların irəli çəkilməsi, gənc ailələrin sosial-iqtisadi problemlərinin həlli istiqamətində dövlət səviyyəsində görülən işlər buna bariz sübutdur. Şəhərimizdə də bu istiqamətdə məqsədyönlü işlər görülür.

## 2 fevral Gənclər Günüdür

# GƏNCLƏR SABAHIMIZA AÇILAN NURDUR

Bu günkü müsahibimiz UNİCEF-in şəhərimizdəki əməkdaşı sosioloq Amin Quliyevdir.

Gənclər siyasətinin dəstəkçisi Amin Quliyev, Salyan rayonunun Seydan kəndində 1997-ci ildə həyata göz açıb. 2003-cü ildən ailəvi olaraq Şirvan şəhərində yaşayan Amin 2004-2015-ci illərdə Azərbaycanın Mili Qəhrəmanı Nofəl Quliyev adına 9 nömrəli tam orta məktəbdə təhsil alıb.

Öyrənirik ki, Aminin arzusu hüquqşünas olmaq imiş. İş elə gətirib ki, o 2016-cı ildə Şirvan Dövlət və İqtisadiyyat və Humanitar kollecinə qəbul olunub.

Natiqlik, təşkilatçılıq qabiliyyəti və fəallığı ilə fərqlənən Amin elə ilk vaxtlardan kollecin tələbə Gənclər təşkilatının sədri seçilib. Tələbəlik illərində gənclərə örnək olmaqla, həm də müxtəlif ictimai sektorlarda öz əmək fəaliyyətinin əsasını qoyub. YAP şəhər Gənclər birliyinin üzvü olan Amin çox keçmədən YAP-ın sertifikatı ilə qiymətləndirilib O, şəhərdə baş tutan bir neçə ictimai-siyasi tədbirin təşkilatçısı olub.

Sonradan Heydər Əliyev Fondunun təşəbbüsü ilə fəaliyyət göstərən regionların inkişafı ictimai birliyinin aktiv könüllüsü olan Amin gənc dostlarını da birliyə çağırış edib. Respublika gənclərinin «Payız 2016» layihəsinə vəsiqə qazanıb. Həmin layihə çərçivəsində həyata keçirilən turda 2-ci yeri tutub. 1-ci natiqlik sertifikatı ilə təltif edilib.

Amin Quliyev bu uğurlarıla kifayətlənməyib. 2018-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən «Küləyə qalib gəl» marfonunun iştiarkçısı olub. 2018-ci il «Təlimçi» sertifikatı ilə təltif edilməsi onun həyatında unudulmaz iz qoyub.

Gənc sosioloq Amin Quliyev söhbət zamanı dedi ki, o müxtəlif sosial xidmətlər modeli çərçivəsindəki layihədə sosial işçi kimi fəaliyyət göstərir. İşinin mahiyyəti region gəncləri ilə təlimlər keçmək, eləcə də aztəminatlı ailələrə sosial yardımının rəsmiləşdirilməsinə, boşanmada olan ailələrin aliment problemlərinin həllinə, nitqi qüsurlu, fiziki əngəlli gənclərin ortopedik avadanlıqlarla təmin edilməsinə kömək göstərməkdir.

Əlavə olaraq o bildirir ki, gənclər sabaha açılan nurdur. Onlara kömək göstərmək vacibdir. Azərbaycan gənclərinin inkişaflı, fiziki cəhətdən qüsurlu olan gənclərin cəmiyyətə uygunlaşması yönümündə görüləsi işlər çoxdur. Qarşıda duran vəzifələri yerinə yetirmək üçün daha ciddi çalışmalıyıq. A.Quliyev söhbətimizin sonunda ona əsil dost diqqəti, qayğısı göstərən və ən nəhayət ona bu məsul işi etibar edənlərə təşəkkürünü bildirdi. Və bütün gəncləri 2 fevral Gənclər Günü münasibəti ilə təbrik etdi.

**Ulmaz GÜVƏN ,**
**Azərbaycan Jurnalistlər birliyinin üzvü**



# ƏDƏBİ-BƏDİİ GECƏ

**Şirvan şəhər Mərkəzi Kitabxanasında 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar "20 Yanvar qan yaddaşımız" adlı ədəbi-bədii gecə keçirilmişdir.**

Tədbiri giriş sözü ilə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru İltifat Nəbiyev açmışdır.

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra İlhamə İmanovanın" 20 Yanvar faciəsi", Alma Cəfərovanın "Qanlı tarix", Aysel İsmayılovanın "Elçin İmanov", Kəmalə Quliyevanın "İlham və Fərizə" 9 nömrəli tam orta məktəbin Uşaq Birliyi Təşkilatının rəhbəri Gülarə Cahangirovanın "Qəhrəmanlıq salnaməsi" adlı məruzələri dinlənilmişdir.

Tədbirdə Şirvan şəhər 9 nömrəli tam orta məktəbin VII c sinif şagirdləri Aysun Ağacanova, Günay Bağırova, Tutu Rəhimzadə, Ayşən Yusifli, İntizam Gözəlov, Gülnaz Qafarova, Xumar Dəmirova, Murad Mahmudzadə, Əli Həsənzadə, Məhəmməd Vəliyevın ifasında 20 Yanvar şəhidlərinə həsr olunmuş "Şəhidlər" adlı kompozisiya təqdim olunmuşdur.

Sonda "Qanla yazılan tarix" adlı sərgiyə baxış keçirilmişdir.

**Kəmalə Quliyeva,**
**Mərkəzi kitabxananın baş biblioqrafı**

## Qaldı şəhidlər

**Qarabağ uğrunda şəhid olmuş, Əfqanıstan döyüşlərində iştirak etmiş, iki dəfə «Qırmızı ulduz» ordeni ilə təltif olunmuş (1966-1992) Zeynalov Sahib Əliheydər oğlunun timsalında bütün şəhidlərə ithaf edirəm.**

Atılar meydana qorxu bilmədən
Hünərdə vüqarda Zaldı şəhidlər
Nəbi nərəsiylə hücuma keçib
Koroğlu cəngisi çaldı şəhidlər.

Qoynuna əbədi alsa da torpaq
Dillərdən-dillərə salsa da torpaq
Yellərə, sellərə atsa da torpaq
Tarixə iz salıb qaldı şəhidlər.

Hamı o dünyaya əliboş gedər
Sevinci unudar qəmə tuş gedər
Namərdə dərd olar mərdə xoş gedər
İgidlik adını aldı şəhidlər.

«Bir yandan boşalıb bir yandan dolub»
Bir yandan cöcərib bir yandan solub.
İgidlik bu mərdlik bir misal olub
Bu gözəl amala qaldı şəhidlər.

Yarpağın üstündə şəbnəmə bənzər
Könüldə sevincə həm qəmə bənzər
Əbədi yanacaq bir şəmə bənzər
Məsum bir çöhrədə xaldı şəhidlər.

Zülməti sarsıdan hünər göstərib
Vətənə-xalqına səhər göstərib
Döyüşdə Mehdi tək hünər göstərib
Rəqibi gücündən saldı şəhidlər.

**Elşad ŞİRVANLI,**
**«Qızıl-qələm» mükafatı laureatı**

## ŞƏHİDLƏR

Müdhiş bir gecənin qaranlığında
Torpağa aydınlıq verdi şəhidlər
Sinəsindən axan müqəddəs qanla
Kölə zəncirini qırdı şəhidlər.

Sönməz bir amalı onlar yaşatdı.
Yatmış bir milləti erkən oyatdı
Vətənin adını göyə ucaltdı.
Vətən üçün məbəd qurdu şəhidlər

Vətən övladından istədi qurban
Uşaq da, böyük də verdi neçə can
Ötüşdükcə illər, keçdikcə zaman
Nəsillərə örnək oldu şəhidlər.

Vallah qələm ağlar yazır bitməyir.
Torpağa can verən heç vaxt itməyir.
Gözümüz önündən o gün getməyir.
Qanlı «Qara yanvar» oldu şəhidlər.

**Heyvagül ŞİRVANLI**

*Hekayə*

# GÜLNARIN RÜSTƏMLİ GÜNLƏRİ

## (və ya gözlərin vida görüşü)

**Qatar Bakı dəmiryol vağzalında dayandı. Gülnar əl çantasını götürüb perrona düşdü. Çiskin yağış yağırdı. O gilavarı çox sevirdi. Rüstəmi xatırladı. Yəqin Bakıda olsaydı onu qarşılamağa gələrdi. Atası xəstə olduğu üçün rayona getmişdi. Gülnara zəng edərək bildirmişdi:**

-Əzizim, bağışla, səni qarşılamağa gələ bilmədim.

Gülnar onun üzrxahlığını qəbul etmiş, narahatlığının əbəs olduğunu demişdir... Gülnar yaşadığı mənzilə çatıb hər şeyi yerbəyer etdi. Rayondan gətirdiyi mer-meyvəni, ağartını soyuducuya qoydu. Gülnar Şirvan bölgəsində yaşayırdı. Tibb texnikumunu bitirdikdən sonra Bakıda özəl xəstəxanada baş tibb bacısı işləyirdi. Onun Rüstəmlə tanışlığı da buradan başlamışdı...

Yağışlı, küləkli bir gündə Gülnar növbəti iş gününü başa vurub evə getməyə hazırlaşırdı. Nazim həkim həyəcanla ona yaxınlaşdı:

-Gülnar,ayaq saxla, avtomobil qəzasına düşmüş yaralı gətiriblər.

Gülnar baş tibb bacısı kimi cəld əməliyyat otağına keçdi. Başqa tibb bacıları ilə birgə tibbi ləvazimatları yerbəyer etdi. Çox çəkmədi ki, xəstəni gətirdilər. Onun sir-sifəti qan içində idi. Xəstənin qol-qıçı zədələnmiş, başı yarılmışdı. Huşu özündə deyildi. Həkimlər, tibbi heyət onun ağrılarını azaltmağa çalışır, müalicəsi üçün əllərindən gələni edirdilər...

Günlər, həftələr keçdikcə xəstə yaxşılaşırdı. Onun adı Rüstəm idi. Rüstəm boylu-buxunlu yaraşıqlı bir oğlan idi. Layihə institunda işləyir, memar kimi şəhər və rayonlarda müasir tələblərə uyğun yaşayış binalarının layihələrini hazırlayırdı...

Öz gözəlliyi ilə xəstəxanada çoxlarının ürəyinə od salan Gülnar ona yaxınlaşanlara, ürəyini açanlara biganə idi. Hamıya çox səmimi şəkildə rədd cavabı verirdi. Xəstəxanada



*Vaqif ABBASOV*

bir aydan artıq yatan Rüstəm ona qayğı ilə yanaşan Gülnara elə öyrəşmişdi ki, onu görməyəndə məyus olur, darıxırdı...

Günlər keçdikcə Rüstəmlə Gülnar arasında səmimi bir ünsiyyət yarandı. Bu ünsiyyət getdikcə artır, onları daha da bir-birinə yaxınlaşdırırdı. Başqalarına biganə qalan Gülnar Rüstəmin casibəsindən çıxa bilmirdi. Onlar bir-birlərini sevirdilər. Bir-birlərinə möhkəm bağlanırdılar..

Bu sevgilər mütəmadi görüşlərə çevrilməyə başladı. Onlar şirin və xoşbəxt anlar yaşayırdılar...

-Mən səni dəlicəsinə sevirəm, Gülnar, səndən aldığım həzzi, ləzzəti, sevgini ömrümün ən şirin anları, dəqiqələri sayıram. Rüstəmin ağuşunda xumarlanan Gülnar onun öpüşlərinə qərq olurdu. Rüstəmin qolları arasında asta-asta nəfəs alırdı. Onlar iki gündən bir, üç gündən bir görüşür, əylənirdilər. Gülnar Rüstəmin ailəli olduğun bilirdi. Hər dəfə Şirvan bölgəsinə, rayona gedəndə Rüstəm «Mersedes» maşınında onu evlərinə aparırdı. Gülnargilin evinə getməsə də qayıdanda onu götürüb Bakıya gətirirdi.

Gülnarın anası Kəmalə xanım artıq Rüstəmi tanıyırdı. Qızının söhbətlərindən hiss edirdi ki, onlar bir-birlərinə çox bağlıdılar. Ana Gülnarın Rüstəmə olan sevgisini, Rüstəmin onunla olan yaxınlığını hiss edirdi...

Rayonda Kəmaləni deyib-gülən, toyda, şənliklərdə fəal iştirak edən bir xanım kimi tanıyırdılar. Yaşı əllini ötsə də gözəl və cazibədar idi. Uca boyu,ağappaq mütənasib bədəni, daim gülər üzü insanlarla daim xoş ünsiyyət yaratması onu çoxlarına sevdirirdi. Həyat yoldaşı vaxtsız həyatdan köçdükdən sonra Kəmalənin qapısına gələnlər çox olmuşdu. Amma cazibədar qadın hamıya yox demişdi. Elə indi də bu yaşda onunla ailə qurmaq istəyənlər var idi. Gülnar isə anasından da gözəldi. Amma çox sakit qızdı.

Gülnarın növbəti gəlişindən birində Kəmalə üzünü qızına tutub:

-Nə vaxta kimi belə görüşlər davam edəcək?-dedi. Buna son qoyub ailə qurmaq lazımdır.

-Ana, onun ailəsi var, övladları var.

-Nə olsun, mən görürəm, hiss edirəm o, sənə çox bağlıdır, sənin hər bir sözünü, arzunu yerinə yetirər.

-Ana , mən xoşbəxtliyimi başqalarının bədbəxtliyi üzərində qura bilmərəm.

-Podumaeş, səni də saxlar, ailəsini də, onun imkanları böyükdür. Anasının bu sözündən sonra Gülnar əl sumkasını götürüb Rüstəmə zəng etdi və yola hazırlaşdı.

-Qızım, mən də anayam, səni xoşbəxt görmək istəyirəm,-dedi Kəmalə xanım...

Çox keçmədi ki, darvaza ağzında maşın siqnalının səsi eşidildi. Kəmalə qızı ilə darvazadan çölə çıxdı. Gələn Rüstəm idi.

-Ay Rüstəm, gəlib qonağımız olaydın,-dedi Kəmalə.

-Çox sağ olun Kəmalə xanım, axşam düşür Bakıya qayıtmalıyıq.

Gülnar anası ilə sağollaşıb maşina əyləşdi... Həyat davam edirdi. Yaz fəslinin ilk ayı idi. Hər tərəf yaşıl dona bürünmüş, ağaclar çiçək açmışdı. Yaz günlərindən birində Rüstəm Gülnarla dənizkənarı bulvarda gəzirdilər.Onlarla şəhər sakini yaz günəşi altında oturacaqlarda dincəlir, dəniz havası udurdular.

Gülnarla şirin-şirin söhbət edən Rüstəmin diqqətini onlara tərəf qaca-qaca, -ata-ata deyən uşaqlar cəlb etdi. Bunlar Rüstəmin övladalrı Lalə və Savalan idi. Uzaqdan atalarını görən, səliqə ilə geyinmiş, 10-12 yaşlarında olan uşaqlar atalarına çatıb onu qucaqladılar.

-Ay mənim körpə fidanlarım, deyib Rüstəm balalarını qucağına götürdü.laləm, Savalnım mənim. -Kimlə gəlmisiniz?

Ana ilə gəlmişik ata, dayı bizi gətirdi dedi ki, iki, üç saat oynayın, dincəlin gəlib sizi aparacam. - Ora bax ata, mama da skamyada oturub.

-Gəlin gedək mamanın yanına. Rüstəm uşaqlarının əllərindən tutaraq Gülnarla birgə oturacağa tərəf yaxınlaşdı.

-Yaxşı eləyib gəlmisiniz, sağ olsun Namiqi ki, sizi evdən çıxarıb.

**(ardı var)**


## "İŞIQ"- 2020 ƏZİZ OXUCULAR!

2020-ci ilin I yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti "İŞIQ"a abunə yazılışı davam edir. 6 aylıq abunə haqqı 14 manatdır. "İşıq"a KAPİTAL BANKIN Şirvan şəhər filialında və 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar. H\ h- AZ39AIIB 33060019444100281141. VÖEN -2100104521. İndeks 66858 "İşıq"a- öz qəzetinizə abunə yazılmağı unutmayın!


## ETIBARSIZDIR

Aslanov Müzənfər Sərdar oğluna məxsus Şirvan şəhəri, Xəqani küçəsi 565A-da yerləşən torpaq sahəsinin RX№ 1410315 seriyalı, 1318010756 qeydiyyat nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

14.08.2017-ci il tarixdə Qasımov Cahangir Abuzər oğluna verilmiş 086785 saylı II qrup əlillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız: Baş redaktor: 6-35-60 Redaktor müavini: 6-31-35 E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız: Şirvan şəhəri, İ.İ.Qayıbov küçəsi 16, Şəhadətnamə №161 İndeks: 66858 Tiraj: 650